DOI: 10.36719/2663-4619/60/4-5

**Namaz Rizvan oğlu Manafov**
Mingəçevir Dövlət Universiteti

## PROFESSOR BAYRAM ƏHMƏDOV ZAMANIN YADDAŞINDA

Hündürboylu, gülərüzlü, səliqəli və şux geyinən Bayram müəllim elə ilk görüşdən adamı özünə cəlb edirdi. Həm alimliyi, həm müəllimliyi, həm də insanlığı ilə yadda qalan, ehtiramla yad edilən şəxsiyyət idi.

Dilçi alim Bayram Baxşalı oğlu Əhmədov 1935-ci ilin aprel ayının 28-də Ağdaş rayonunun Pirkəkə kəndində anadan olmuşdur. 1943-1949-cu illərdə kənddəki yeddiillik məktəbdə oxumuş, 1949-1953-cü illərdə Ağdaş Pedaqoji Texnikumunda təhsil almışdır. Texnikumu fərqlənmə diplomu ilə bitirərək Qazax rayonunun Dağkəsəmən kənd orta məktəbində bir il sinif müəllimi işləmiş, 1954-1959-cu illərdə o vaxtkı Lenin adına APİ-nin (indiki ADPU) tarix-filologiya fakültəsində təhsil almışdır. 1959-cu ildə təyinatla Mingəçevir şəhərinə işə göndərilmiş Bayram müəllim əvvəl fəhlə-gənclər axşam məktəbində müəllim ışləmiş, bir il sonra həmin orta məktəbdə direktor müavini vəzifəsinə irəli çəkilmişdir. 1962-1970-ci illərdə Mingəçevir şəhərindəki 4 nömrəli beynəlmiləl şəkkizillik məktəbin direktoru olmuşdur. Mingəçevir şəhərindəki yaşlı nəsilın nümayəndələri indi də Bayram müəllimi səmimi, qayğıkeş insan kimi xatırlayır.

Elmi tədqiqat işinə olan maraq Bayram müəllimi yenidən ali məktəbə-APİ-yə, bu elm məbədinə gətirdi. 1970-ci ildən 1993-cü ilə qədər APİ-də əvvəl baş müəllim, sonra dosent vəzifəsində çalışdı. Azərbaycan dili və ədəbiyyatı fakültəsində dekan müavini oldu.

B.B.Əhmədovun Pedaqoji fəaliyyətinin bir dövrü də Azərbaycan Tibb Universitetinin Azərbaycan dili kafedrası ilə bağlı olmuşdur (1993-1998-ci illər). Tanınmış alim 1998-ci ildən ömrünün sonuna kimi (2012-ci il) Bakı Dövlət Universitetinin Azərbaycan dilçiliyi kafedrasının professoru olmuş, kafedra müdirinin müavini işləmişdir. O, müəllimə xas olan bütün əxlaqi keyfiyyətləri ilə qənc müəllimlərə örnək, tələbələr üçün mənəviyyat nümunəsi idi. Mülayim xasiyyəti vardı, lakin prinsipial idi, mövqeyindən dönməzdi, yersiz güzəştə getməzdi.

Professor Bayram Əhmədov Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilcılık İnstitutunda Azərbaycan dilçiliyi və dil nəzəriyyəsi üzrə namizədlik və doktorluq müdafiə şurasının üzvü olmuşdur. Onun yeni nəsil dilçi alimlərin yetişməsində xidmətləri böyükdür.

Elmlər doktoru və ya elmlər namizədi adını almış 20 nəfərdən artıq iddiaçının rəsmi opponenti professor Bayram Əhmədov olmuşdur. Onun rəhbərliyi ilə neçə nəfər elmlər namızədi yetişmişdir.

Professor Bayram Əhmədov Azərbaycanda dilçilik sahəsində xüsusi söz sahibi olan alimlərdən biridir. Onun elmi-pedaqoji yaradıcılığı çox rəngarəngdir. Ümumiyyətlə, tanınmış alim 15 kitab (dərslik, dərs vəsaiti, monoqrafiya, lüğət) və 100-dən artıq elmi-publisistik məqalənin müəllifidir.

Bayram Əhmədovun "Məruzəçinin nitq mədəniyyəti" (N.Abdullayevlə birgə) əsəri nitq mədəniyyəti üzrə yazılmış ilk dərsliklərdən biridir. Azərbaycan dilinin ilk ixtisarlar lüğəti də onun adı ilə bağlıdır ("İxtisar sözlər lüğəti", 2005-ci il).

"Məktəblinin izahlı frazeoloji lüğəti" də dilçi alimin gərgin əməyinin məhsuludur.

2019-cu ildə mərhum professor Bayram Əhmədovun mürəkkəb adların ixtisarından ibarət "İxtisarlar lüğəti" (f.e.d. N.Seyidəliyev və f.f.d. R.Heydərovla birgə) dərc olunub. Bu kitabda 5500-dən çox qısaltmanın yazılış və oxunuş qaydaları geniş şəkildə şərh edilir, hər bir ixtisarın qarşısında onun açılışı verilir.

B.B.Əhmədovun əsas tədqiqat sahələri Azərbaycan dilinin fonetikası, leksikologiyası, frazeologiyası, leksikoqrafiyası və dialektologiyası olmuşdur. Onun elmi yaradıcılığının başlıca qolunu isə dialektologiya məsələləri təşkil edir. Bayram müəllimin bu sahədəki tədqiqatları daha böyük, daha qiymətlidir. O, hələ 1967-ci ildə "Azərbaycan dilinin Mingəçevir ətrafı şivələri" adlı namizədlik dissertasiyası (fəlsəfə doktoru) müdafiə etmişdir.

Bayram Əhmədov Azərbaycan dialektologiyasına yeni istiqamət verən, xüsusən də leksikanın və söz yaradıcılığının tədqiqində böyük rolu olan dilçi alimdir. Onun Azərbaycan dilinin şivə materialları əsasında yazdığı və geniş elmi ictimaiyyətə təqdim etdiyi "Azərbaycan dilinin şivələrində söz yaradıcılığı (sadə sözlər)" (1987-ci il), "Azərbaycan dili söz yaradıcılığında sadələşmə meyli" (1990-cı il), "Leksika məsələləri" (1990-cı il) kitabları şivələrimizdəki söz yaradıcılığına həsr olunmuş qiymətli vəsaitlərdir.

Bayram Baxşəli oğlu Əhmədov 1992-ci ildə "Azərbaycan dili dialekt və şivələrində söz yaradıcılığı (tarixi tədqiqat)" adlı doktorluq dissertasiyası müdafiə etmişdir. O, 1994-cü ildən professordur.

Dilçi alimin qiymətli əsərlərindən biri də "Azərbaycan dili şıvələrində fono-semantik soz yaradıcılığı"dır. Bu əsər sübut etdi ki, Bayram Əhmədov dialekt materiallarını incəliklərinə qədər bilən, onu duyan tədqiqatçı alimdir. Dərs vəsaitində Azərbaycan dili şivələrindən toplanmış sözlər quruluşuna görə araşdırılır, müxtəlif

türk dilləri və şivələrinin faktları ilə müqayisələr aparılır. Heç kimə sirr deyil ki, şivələr leksikasının tarixi təhlili çox böyük işdir və dialektologiyanın müasir problemi kimi bu gün də öz aktuallığını itirmir, böyük əhəmiyyət kəsb edir.

Professor Bayram Əhmədovun dialekt problemlərinə həsr edilən və yüksək elmiliyi ilə seçilən əsərləri Azərbaycan dilçiliyinə sanballı töhfədir.

Yaşasaydı, 85 yaşı olardı. O, zamanın yaddaşında istedadlı alim, gayğıkeş müəllim, səmimi insan kimi qalıb.

Göndərilib: 19.04.2020 Qəbul edilib: 21.04.2020